# Mənalı ömür yolu

**Qubada nəşr olunan "Şəfəq" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Qəhrəman Qasımovun 60 yaşı tamam olur.**

Azərbaycan Dövlət Universitetinin məzunu olan Q.Qasımov 37 ildir ki, "Şəfəq" qəzetində çalışır. O, hələ orta məktəb illərindən əməkdaşlıq etdiyi bu mətbuat orqanında 1983-cü ildə korrektor kimi fəaliyyətə başlayıb. Daha sonra müxbir, şöbə müdiri vəzifələrində çalışıb və maraqlı yazıları ilə oxucuların rəğbətini qazanıb. 2006-cı ildən isə istedadı sayəsində qəzetin baş redaktorudur.

Yeri gəlmişkən qeyd edək ki, onun "Şəfəq"ə rəhbərlik etdiyi illərdə bu qəzet daha oxunaqlı şəkildə nəşr olunur. Şübhəsiz, bu da Qəhrəman müəllimin peşəkarlığının səviyyəsindən qaynaqlanır. Onu iş başında görən bir şəxs kimi deyə bilərəm ki, peşəsini sevən jurnalist olaraq hər cümlə üçün, sözün həqiqi mənasında, can yandırır. Üstəlik, hər materialı yüz ölçüb, bir biçir, dövlətçilik prinsiplərinə sədaqət nümayiş etdirir, milli maraqların təəssübkeşi olur. Bununla da o, üzərinə düşən vəzifəni vicdanla, qərəzsiz yerinə yetirir. Bu barədə söz düşəndə isə bu peşənin məsuliyyəti barədə belə deyir: "Hazırda ölkəmizdə söz və mətbuat azadlığı üçün heç bir maneə yoxdur, jurnalistlər istədikləri mövzunu açıq şəkildə cəmiyyətin diqqətinə çatdıra bilirlər. Bu isə o deməkdir ki, Prezident İlham Əliyev ölkəmizdə kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyət göstərməsi, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələri üçün bütün zəruri imkanlar yaradıb. Bu gün respublikamızda söz və mətbuat azadlığı sahəsindəki mövcud vəziyyət qabaqcıl demokratik ölkələrlə eyni vəziyyətdədir. Üstəlik, jurnalistlər üçün elə şərait yaradılıb ki! Mətbuat orqanlarının maddi-texniki bazalarının möhkəmləndirilməsi, jurnalist əməyinin qiymətləndirilməsi buna sübut deyilmi? Hətta mən deyərdim ki, dünyanın heç bir ölkəsində mətbuata belə yüksək səviyyədə diqqət və qayğı tendensiyasına rast gəlinmir. Mətbuatımız da çox haqlı olaraq ölkə Prezidentini özünün dostu hesab edir".

Qəhrəman Qasımovla həmsöhbət olarkən bir daha yəqin etdim ki, "Şəfəq" də bu diqqət və qayğıdan kənarda qalmayıb: "Bu gün qəzetimizin, demək olar ki, heç bir texniki problemi yoxdur. "Şəfəq"in kompüter mərkəzi yaradılıb ki, burada qəzetin dizaynı, şəkillərin yerləşdirilməsi, səhifələnməsi, bir sözlə, çapa qədərki bütün işlər həyata keçirilir. Halbuki 2007-ci ilin mayına qədər bu işlər "Azərbaycan" Nəşriyyatının kompüter mərkəzində görülürdü. Bu isə o deməkdir ki, yeni alınmış texniki avadanlıqlarla redaksiyamızın maddi-texniki bazasını möhkəmləndirmişik. Üstəlik, redaksiyamız yeni bina ilə təmin olunub. Qəzetə dövlət qurumu tərəfindən "Niva" markalı avtomobil də hədiyyə edilib. Bütün bu görülən işlər yalnız mənim deyil, kollektivimizin əməyinin nəticəsidir. Elə 2015-ci ildə Əməkdar jurnalist adına layiq görülməyimi də kollektivimizə verilən dəyər kimi qiymətləndirirəm. Yeri gəlmişkən, bu gün qəzetimiz Quba Rayon İcra Hakimiyyəti və jurnalist kollektivinin təsisçiliyi ilə işıq üzü görür. İcra hakimiyyətinin abunə sarıdan bizə köməyi dəyir. Bu isə hər şeydən əvvəl, rayonun aynası sayılan "Şəfəq"ə olan diqqətin nəticəsidir. Etiraf edək ki, belə bir qayğı olmasaydı, bu gün "Şəfəq" 99 yaşına gəlib çıxa bilməzdi. Onu da vurğulamaq istərdim ki, gələn il qəzetimizin 100 yaşı tamam olacaq. Bu tarixi də yüksək səviyyədə qeyd etməyə çalışacağıq".

Bölgə mətbuatımızın ilk "qaranquş"u sayılan və "Əxbar" adı ilə fəaliyyətə başlayan "Şəfəq"lə, sözün həqiqi mənasında, nəfəs aldığını vurğulayan həmsöhbətimizin sözlərinə görə, bu qəzet təkcə Qubada deyil, ümumiyyətlə, bölgədə ictimai fikrin formalaşmasında mühüm rol oynamış və bu gün də bu missiyanı uğurla davam etdirir: "Bu prosesdə mənim də əməyim olduğuna görə qürur duyuram".

Qəhrəman müəllim, həmçinin vurğuladı ki, ümumiyyətlə, "Şəfəq" onun həyatının mənasını təşkil edir: "Hərdən mənə elə gəlir ki, "Şəfəq"də çalışmasaydım, həyat mənim üçün çox darıxdırıcı olardı". Baş redaktora belə bir sualla da müraciət etdik: "Şəfəq"də məmurların tənqidinə də rast gəlinir... Bu, baş redaktor kimi sizin üçün başağrısı yaratmır ki?". O dedi ki, biz belə şeylərdən çəkinmirik. Bir də fakt doğrudursa, məmur bizə nə başağrısı yarada bilər axı... Doğru yazdığımıza, həqiqəti dediyimizə görə də oxucu etimadı və etibarını qazana bilmişik. Zənnimcə, bizim üçün ən qiymətlisi budur".



Qəhrəman Qasımov bir maraqlı faktdan da söz açdı: "Ötən əsrin 90-cı illərinin əvvəllərində bir sovxozda həyata keçirilən torpaq islahatlarındakı özbaşınalıqlarla bağlı "Bağda ərik var idi" adlı bir material yazmışdım. Buna görə həmin sovxozun direktoru məni haralara çəkmədi? Lakin mövqeyimdən geri çəkilmədim. Üstəlik, elə həmin mövzuda bir yazı da yazdım. Bununla həmin məsələ öz həllini tapdı: şikayətçilər qanuni torpaq sahələrinə sahib oldular. Bilirsinizmi, jurnalistin yazdığı faktlar doğru, qaldırdığı problem önəmli olanda o, heç zaman məğlub olmur. Təbii ki, jurnalist həm də öz mənəviyyatına arxayın olmalıdır. Bu məqamda bir məsələni də xüsusi vurğulamaq istərdim. İndiyədək yüzlərlə insandan müsahibə almışam, yüzlərlə faktdan söz açmışam. Bu mənada deyə bilərəm ki, jurnalist bioqrafiyamın zənginliyi məni sevindirir".

Bəli, həqiqətən də o, həyatın nəbzini tutmağı bacaran, biliklərə can atan, mütaliəni sevən bir jurnalistdir. Bunu da qeyd edək ki, 3 övlad atası olan Q.Qasımov asudə vaxtını bir qayda olaraq, öz kiçik təsərrüfatında keçirməyi çox sevir. Özünün dediyi kimi, bu da ona "Şəfəq"in növbəti saylarının daha sanballı çıxmasına əlavə stimul verir.

**E.HÜSEYNBƏYLİ,**
**"Respublika".**